# Təsviri və tətbiqi incənət üzrə test

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Praktiki tapşırığa praktiki tapşırığa məxsus olan vərəqdə əməl edin. Praktiki tapşırığa (tapşırıq 26) əməl etmək üçün sizə karandaş, yazıpozan və karandaş itiləyən lazımdır.

Praktiki tapşırıq üçün lazım olan vərəqədə karandaşla işləyin! Karandaşdan yalnız bu tapşırığa əməl etmək üçün istifadə olunmasına yol verilir.

Testin maksimal xalı 60-dır.

Testə əməl etmək üçün 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!

**1-19 №-li tapşırıqlar üçün təlimat** (Hər düzgün cavaba 1 bal verilir) **-** Hər tapşırığa dörd ehtimal cavab verilir. Onlardan yalnız biri düzgündür. Seçdiyiniz cavabı cavablar vərəqində aşağıdakı kimi qeyd edin: cavablar vərəqinin müvafiq xanasında X işarəsini yazın. Elektron proqram başqa heç bir qeydi, şaquli və ya üfüqi xətləri, dairəyə almağı və s. qəbul etmir. Əgər siz cavablar vərəqində qeyd etdiyiniz cavabın üzərində düzəliş etmək istəyirsinizsə, X-lə qeyd etdiyiniz xananı bütövlükdə rəngləyin və sonra düzgün cavabın yeni variantını yazın (X işarəsini yeni xanada qeyd edin). Düzəliş etdiyiniz cavabı yenidən seçmək olmaz.

(1) **1. İllüstrasiyada hansı memarların əsərlərinin kompilyasiyası əsasında yaradılmış interpretasiya təqdim olunub?**



ა) Frenk Qeri və Frank Lloyd Raytın;

ბ) Zaha Hadid və Yorn Utzonun;

გ) Antonio Qaudi və Le Korbuzyenin;

დ) Santyaqo Kalatrava və Qustav Eyfelin.

(1) **2. İonik orderin xarakterik əlaməti hansıdır?**

ა) Sütunun bazası yoxdur;

ბ) Friz triqliflərdən və metopalardan ibarətdir;

გ) Formalar kütləli, həndəsi cəhətdən sərt və sadədir;

დ) Kapitel dərin kanelyur və volyutalarla bəzədilib.

(1) **3. Şəkildə təqdim olunan memarlıq və heykəltəraşlıq detalı hansı qədim şəhərə və ya məbədə aiddir?**





ა) Persepolisə;

ბ) Ramesseuma;

გ) Dur - Şarrukinə;

დ) Suzaya.

(1) **4. Üslub xüsusiyyətlərini və tematikanı nəzərə alın və təqdim olunan rəngkarlıq rəsminin incəsənətin hansı cərəyanına aid olduğunu müəyyən edin.**




ა) Rokokoya;

ბ) Neoklassisizmə;

გ) Realizmə;

დ) İntibaha.

(1) **5. Mamuka Tavakaraşvilinin “Pələng dərisi geymiş pəhləvan” illüstrasiyasında hansı mədəniyyətlə əlaqə özünü göstərir?**



ა) Fars;

ბ) Yapon;

გ) Çin;

დ) Hind.

(1) **6. XII-XIV əsrlərdə Qərbi Avropa incəsənətində xətti ritm və kompozisiyanın şaquli inkişafı, həmçinin heykəltəraşlıq və memarlığın sintezi ilə xarakterizə olunan üslubu adlandırın.**

ა) Barokko;

ბ) Qotika;

გ) Romantizm;

დ) Klassisizm.

(1) **7. Onore Domye təqdim olunan rəsmi hansı bədii texnikanın vasitəsilə yaradıb?**




ა) ksiloqrafiya;

ბ) monotipiya;

გ) litoqrafiya;

დ) linoqravüra.

(1) **8. Vanitas nəyi əks etdirir?**

ა) Şəhərin peyzajını;

ბ) Kəllə olan natürmortu;

გ) Dəniz səhnələrini;

დ) İnsanlar olan meşə peyzajını.

<table>
<tr><td colspan="4">(1) 9. Təqdim olunan nümunələrdən hansı fovizm üslublu əsərdir?</td></tr>
<tr><td>ა)<br></td><td>ბ)<br></td><td>გ)<br></td><td>დ)<br></td></tr>
</table>

(1) **10. Post-impressionizmə hansı tərif uyğun gəlir?**

ა) İnsana qarşı xüsusi maraq, onun ideal, ümumiləşdirilmiş bədii obrazının dərk edilməsi və əsərdə əks olunması;

ბ) Sürətlə dəyişən aləmdə saniyənin təkrarsızlığının və ani görmə təəssüratının əks olunması;

გ) Deformasiya-üslublaşdırma, formaların təhrif edilməsi, ifadəliliyin və emosional təsirin gücləndirilməsi;

დ) Hadisənin və əşyanın əsas mahiyyətinin, ətraf aləmin ümumi, əbədi vəziyyətinin axtarışı və əsərdə əks olunması.

| (1) **11. Təqdim olunan rəssamlıq nümunələrindən hansı Mose Toidzenin yaradıcılığına aiddir?** | | | |
|---|---|---|---|
| ა)  | ბ)  | გ)  | დ)  |

<table>
<tr><td colspan="4">(1) 12. Təqdim olunan nümunələrdən hansı rəngkarlıq rəsm detalı Anri Matisin əsərinə aiddir?</td></tr>
<tr>
<td>ა)<br></td>
<td>ბ)<br></td>
<td>გ)<br></td>
<td>დ)<br></td>
</tr>
</table>

(1) **13. Hansı tərif İtaliya Yüksək İntibahının xüsusiyyətini əks etdirir?**

ა) Rəssamın diqqətini real həyatla bağlı adi fəaliyyət və məişət detalları cəlb edir ki, bu da kompozisiyanın bilavasitə xarakterini gücləndirir;

ბ) Frontal açılmış hərəkət bizə aydın, tektonik qurulmuş, bitirilmiş kompozisiya şəklində təqdim olunur;

გ) Çərçivə ilə şəkil detallarının kəsilməsi kadr effekti yaradır, tamaşaçı ilə təsvir edilən səhnə arasında bilavasitə əlaqəni daha da gücləndirir;

დ) İnsan fiquru və məkan intuisiya ilə çatdırılır, perspektiv qanunları və anatomiya biliyi xaricində.

(1) **14. Verilmiş uyğunluqların məntiqini müəyyənləşdirin və hansı cütlüyün uyğun gəlmədiyini təyin edin.**

ა) Pol Qogen - Fovizm;

ბ) Anri de Tuluz Lotrek - Abstraksionizm;

გ) Vinsent Van Qoq - Ekspressionizm;

დ) Pol Sezan - Kubizm.

(1) **15. Qədim Yunanıstanda Yüksək Klassika dövründə hansı heykəltəraşlar fəaliyyət göstərmişlər?**

ა) Fidi, Miron, Praksitel;

ბ) Skopas, Lisipp, Poliklet;

გ) Aqesandr, Leoxar, Fidi;

დ) Miron, Fidi, Poliklet.

(1) **16. Fotoda hansı rəngkarlıq əsərinin detalı təqdim olunub?**



ა) Velaskesin “Papa X İnnokentinin portreti“;

ბ) El Qrekonun “Kardinal Fernando Ninyo de Qevaranın portreti”;

გ) Rafaelin “Papa X Leonun portreti”;

დ) Tisianın “Papa III Pavelin portreti”.

(1) **17. Platon demişdir: “Forma gözəlliyi dedikdə, mən heyvanları və ya təbiət təsvirlərini səciyyələndirən gözəlliyi deyil, xətkeş və digər alətlərlə yaradılmış düz xətləri və dairələri, müstəviləri və ya bərk fiqurları nəzərdə tuturam. Mən onlara başqa əşyalar kimi nisbətən gözəl deyil, tam gözəl deyirəm”.**

**Platonun sözləri hansı cərəyanın əsərlərinə uyğun gəlir?**

ა) Abstraksionizm;

ბ) Ar-Nuvo;

გ) Ekspressionizm;

დ) Sürrealizm.

(1) **18. Təqdim olunan kompozisiyada hansı əsas təsvir vasitəsi üstünlük təşkil edir?**



ა) Xətt;

ბ) Rəng;

გ) Forma;

დ) Faktura.

(1) **19. Yuxarıdan çəkilən fotoda sadalananlar arasında hansı tikili təqdim edilib?**



ა) Ayasofiya məbədi;

ბ) Roma panteonu;

გ) Tbilisidə İdman Sarayı;

დ) Qaya günbəzi.

**№ 20-25 tapşırıqlar** “***Düzgündür-səhvdir”***

**Tapşırığın təlimatı** – verilmiş müddəalarla diqqətlə tanış olun. Onların düzgün və ya səhv olduğunu müəyyən edin. Əgər müddəanı düzgün hesab edirsinizsə, müvafiq xananı işarələyin. Belə hallarda şərh tələb olunmur. Əgər müddəanı səhv hesab edirsinizsə, müvafiq xananı işarələyin və xüsusi ayrılmış sahədə düzgün ifadəni yazın.

**Qeyd:** Müddəa səhvdirsə, ona uyğun gələn düzgün termini/sözü yazın və yaxud verilmiş terminin/sözün düzgün izahını yazın. Nəzərə alın ki, verilmiş müddəanın təsdiq forması inkarla və əksinə dəyişdirildikdə, cavab qəbul olunmayacaqdır.
**Nümunə:**



(1) **20. Şimal İntibahının əksər rəssamlarını şəkildə insan proporsiyalarının tam dəqiqliklə əks etdirilməsi narahat etmirdi.**

(1) **21. Şəkildə təqdim edilən rəngkarlıq əsəri üslub və yerinə yetirilmə tərzi ilə impressionist Edqar Deqaya məxsusdur.**



(1) **22. İllüstrasiyada “İştar darvazası” adı ilə tanınan Mesopotamiya incəsənət nümunəsi təqdim olunub.**



(1) **23. Paris Məryəm Ana kilsəsi (Notre Dame de Paris) Roman memarlığının klassik nümunəsidir.**

(1) **24. Təsvirin şərti, dekorativ üsulla çatdırılmasına sfumato deyilir.**

(1) **25. Təqdim olunan incəsənət nümunəsi rəngkarlıq texnikasında yerinə yetirilmişdir.**



(7) **№ 26 tapşırıq.** ***Praktik iş***

**Təlimat:**

**Fotolarda təqdim olunan meyvə (üç heyva) və güldanla qrafik natürmort yaradın. Natürmortu tərtib etdikdə, kompozitiv bölgü prinsipini nəzərə alın. Əşyaların müvafiq proporsiyalarına əməl edin, onlara faktura və həcm verin; düşən kölgələri təsvir etdikdə, işıqlandırma istiqamətini müəyyənləşdirin. Tapşırığı praktik iş üçün ayrılmış vərəqdə yerinə yetirin.**





**№ 27-29 tapşırıq.**
***Xronologiyanın müəyyənləşdirilməsi***

**Tapşırığın təlimatı** – Bədii cərəyanları, rəssamların adlarını, memarlıq və təsviri incəsənət əsərlərini onların aid olduğu zamana əsasən düzün (qədimdən ən yeniyə doğru). Cavabları cavablar vərəqindəki cədvələ yazın. Nəzərə alın ki, cədvəldə yalnız seçilmiş vahidin müvafiq rəqəmi yazılır.

| (1) **27. İncəsənət nümunələrini onların yarandığı vaxta əsasən sıraya düzün.** | | | |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
|  |  |  |  |
| | | | |

| (1) **28. Gürcüstanın kult memarlıq əsərlərini, onların yarandığı vaxta əsasən düzün.** | | | |
|---|---|---|---|
| 1.  | 2.  | 3.  | 4.  |

| (1) **29. İncəsənət nümunələrini, onların yarandığı vaxta əsasən, düzün.** | | | |
|---|---|---|---|
| 1. | 2. | 3. | 4. |
|  |  |  |  |

(3) **№ 30 tapşırıq.** ***Uyğunluğun müəyyən edilməsi* -** A sətrində sadalanan dövrləri/cərəyanları B sətrində verilən incəsənət nümunələri ilə uyğunlaşdırın. Nəzərə alın ki, bir dövrə/cərəyana yalnız bir incəsənət nümunəsi uyğun gəlir.

| | | |
|---|---|---|
| **A.** 1. Yunan arxaikası | 2. Barokko | 3. İmpressionizm |

| | | | | |
|---|---|---|---|---|
| **B.** ა)  | ბ)  | გ)  | დ)  | ე)  |

(3) **№ 31 nömrəli tapşırıq.** ***Uyğunluğun müəyyən edilməsi* -** B sətrində təqdim olunan təsviri incəsənət nümunələrini A sətrində verilən onların müəllifləri ilə uyğunlaşdırın. Nəzərə alın ki, bir müəllifə yalnız bir şəkil uyğun gəlir.

| | | | |
|---|---|---|---|
| **A.** 1. Dimitri Şevardnadze | 2. Davit Kakabadze | 3. Ketevan Mağalaşvili | |
| **B.** ა.  | ბ.  | გ.  | დ.  |
| ე.  | | | |

**Yazılı tapşırıqların təlimatı**

Tapşırıqları diqqətlə oxuyun və onları dərk edin.
Yazı işi başa düşülən xətlə yazılmalıdır. Oxunması çətin olan hissələr düzəldilməyəcək və qiymətləndirilərkən nəzərə alınmayacaq.
Yazılı tapşırıq təlimatla müşayiət olunur. Bu tapşırıqlara elə bir şəkildə cavab verməlisiniz ki, yazı işi məna cəhətdən bütöv, dərk edilmiş olsun və suallara ayrı-ayrılıqda verilən cavabların mexaniki cəmi olmasın.
Fikrinizi aydın, dəqiq və əsaslandırılmış şəkildə formalaşdırın. Yazı işi arqumentasiya (öz fikirlərini nümunələrlə əsaslandırmaq) və müstəqil düşünmə qabiliyyətini nə dərəcədə yaxşı göstərdiyinə görə qiymətləndiriləcək.
Mülahizə məntiqi cəhətdən dəqiq olmalı, fikir aydın şəkildə ifadə edilməlidir.
İşinizi cavablar vərəqinə köçürün.
Cavablar vərəqində buraxılmış səhvin üstündən xətt çəkin, onu nə mötərizəyə alın, nə də qaralayın.

(4) **№ 32 tapşırıq.** Təqdim olunan kompozisiyalar Bibliya süjetlərinin bədii interpretasiyasıdır və bu kompozisiyalarda məzmun, ideya və ya bədii növdə xarakterik xüsusiyyətlər aydın olur. Dörd əsərdən birini seçin, təhlil edin və müəyyənləşdirin:

**1.**



**2.**



**3.**



4.



ა. Rəssam hansı Bibliya süjetini canlandırıb? Əsərin məzmun və vizual uyğunluğunu müzakirə edin;

ბ. Əsərin bədii xüsusiyyətlərini xarakterizə edin və onun ənənəvi ikonoqrafiyadan fərqlənib-fərqlənmədiyini, bədii obrazın xarakterini ifadə edib-etmədiyini müzakirə edin. Cavabınızı əsaslandırın.

**№ 33 tapşırıq.** ***İncəsənət əsərinin təsviri-təhlili***

Verilmiş incəsənət nümunəsi barədə düşünün, onu təhlil edin və dəyərləndirin.



**Tapşırıqları göstərişlərə əsasən yerinə yetirin:**

(3) **33.1** Kompozisiyanı təsvir və xarakterizə edin; verilmiş kompozisiya hansı janra aiddir? Material və texnika əsasında təqdim olunan nümunənin hansı incəsənət sahəsinə aid olduğunu tapın;

(3) **33.2** Şəkildə bədii obrazın xarakterini yaratmaq üçün müəllifin hansı təsvir vasitələrindən və üsullarından istifadə etdiyini təhlil edin və qısaca formalaşdırın;



(3) **33.3** Bədii-üslubi xüsusiyyətlərə  əsasən cərəyanı müəyyənləşdirin; təqdim olunan incəsənət əsərinin hansı ölkəyə və dövrə məxsus olduğunu təyin edin, müəllifi adlandırın.

(3) **33.4** Əsəri dəyərləndirin – öz münasibətinizi bildirin, müzakirə edin və fikrinizi əsaslandırın;

(3) **33.5**  Təsirləri müzakirə edin, əsəri tarixi-mədəni və s. konteksdə təhlil edin.